Vəzifəsinə həmişə məsuliyyətlə yanaşır. Çalışır ki, ona göstərilən etimadı ləyaqətlə doğrultsun. Fərəhli haldır ki, çəkilən zəhməti hədər getməyib. Əksinə ona xüsusi hörmət və nüfuz qazandırıb. Söhbət Şamaxı Rayon Mərkəzləşdirilmiş Kitabxana direktoru Ərəstun Xələfovdan gedir. Oxucularımızı əvvəlcə MKS rəhbəri ilə tanış edirik. Xələfov Ərəstun Qələm oğlu 1966-cı ildə Şamaxıda anadan olub. 1990-cı ildə ADMİU-nun mədəni-maarif fakültəsini bitirib. 1990-1998-ci illərdə Şamaxı Dövlət Döyüş Şöhrəti muzeyinin direktoru vəzifəsində çalışıb. 1998-ci ildən MKS-in direktorudur.



# Məsuliyyət və yaradıcılıqla

Yaxşı işi nazirliyin 23 aprel 2007-ci il tarixli kollegiya iclasında qeyd edilib. Şamaxıda kitabxana 1920-ci ildə yaradılmışdır, - deyə Ə.Xələfov müəssisənin işindən danışır. O vaxtdan Mirzə Ələkbər Sabirin adını daşıyır.

Rayonda Astrofizika rəsədxanası, "Star" televizor zavodu, maşınqayırma zavodu, Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialı, Mədəni-maarif texnikumu, İqtisad kolleci, ali məktəblərə "Araz " hazırlıq kursu və digər idarə və müəssisələr fəaliyyət göstərir ki, bunlar da kitabxananın xidmətindən istifadə edirlər.

Şamaxı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində kitabxana işi təşkil olunarkən kitab təbliği, oxucu marağının öyrənilməsi və artırılması daim diqqət mərkəzində saxlanılmışdır.

Bununla yanaşı il ərzində dövlət siyasətinin və milli-mənəvi dəyərlərimizin təbliği əsas amil kimi kitabxana işinin ayrılmaz tərkib hissəsi olmuşdur.

İl ərzində MKS öz fəaliyyətini əsasən kitabxana fondlarının komplektləşdirilməsi, əhalinin kitabxanaya cəlb olunması, oxucularla xidmətin səviyyəsinin yaxşılaşdırılması, kitab təbliğinin gücləndirilməsi, əlamətdar və tarixi günlərin, şair və yazıçıların yubileylərinin qeyd edilməsi istiqamətində qurmuşdur.

MKS-də fəaliyyət göstərən bütün kütləvi kitabxanalarda respublikamızda baş verən ictimai-siyasi, iqtisadi yeniliklər təbliğatın əyani və

şifahi formaları ilə oxuculara çatdırılmış, mövcud kitab fondu onların ixtiyarına verilmişdir. Əhalinin kitabxanaya cəlb olunması məqsədilə kitabxana işçiləri müxtəlif idarə və təşkilatlarda, məktəblərdə olmuş, söhbətlər aparmış, kitabxana fondları haqqında əhalini məlumatlandırmışlar.

Kitab təbliği məqsədilə kitabxanalarda müxtəlif əyani və şifahi tədbirlərin keçirilməsinə xüsusi diqqət verilir. İlk növbədə Respublika Prezidentinin sərəncamı ilə nəşr olunaraq hədiyyə edilən kitabların təqdimat mərasimləri keçirilir, yeni kitablara, əlamətdar və tarixi günlərə, yubileylərə həsr olunmuş geniş sərgilər tərtib edilir.

2009-cu ildə Mərkəzi kitabxana və kitabxana filiallarında 20 yanvar və Xocalı faciələrinin ildönümü ilə əlaqədar tərtib edilmiş tədbirlər planına uyğun olaraq kitab, qəzet və fotolardan ibarət sərgilər, guşələr, stendlər təşkil edilmişdir.

Anma mərasimləri keçirilmiş, tövsiyə ədəbiyyat siyahıları, biblioqrafik məlumatlar hazırlanmışdır. "Tarixin qan yaddaşı", "Qanlı tariximiz, şanlı tariximiz", "Əsrə bərabər gecə", "Şəhidlər unudulmur", "Qanlı fevral" mövzularında xatirə tədbirləri keçirilmişdir. "31 mart azərbaycanlıların soyqırımı günüdür" adlı ədəbi-bədii kompozisiya, 28 may ADR-nin yaradılması günü münasibətilə "Bir kərə yüksələn bayraq bir daha enməz", "Azərbaycan Xalq Cümhuriyyəti" adlı ədəbi-bədii gecə, oxucu konfransları və məruzələr, 15 iyun Qurtuluş günü münasibətilə "Möhtəşəm qayıdış", "Xalqın xilaskarı " adlı məruzə və söhbətlər keçirilmiş, kitab və foto-sərgilər təşkil olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2009-cu il Azərbaycanda "Uşaq ili" elan olunmuşdur. Sərəncamın icrası ilə əlaqədar Mərkəzi kitabxanada, Uşaq kitabxanasında, rayon mədəniyyət evində təhsil şöbəsinin tabeliyində olan şəhər məktəbləri ilə birlikdə silsilə tədbirlər hazırlanıb həyata keçirilmişdir.

"Valideyn, uşaq, müəllim" mövzusunda dəyirmi masa təşkil edilmiş, "Uşaqlar bizim gələcəyimizdir", "Qoy həmişə günəş olsun" mövzusunda mədəni-kütləvi tədbir keçirilmiş, Uşaq incəsənət məktəbi şagirdlərinin iştirakı ilə möhtəşəm konsert verilmişdir.

2 fevral gənclər günü münasibətilə "Müasir dövrün gəncləri", "Gənclər gələcəyimizdir" mövzusunda oxucu konfransları, 21 fevral "Ana dili günü" ilə əlaqədar oxucularla söhbət keçirilmişdir. "Mənim doğma dilim" mövzusunda oxucu konfransı keçirilmişdir.

Aprel ayında narkomanlığın yayılması, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə məqsədilə Mərkəzi kitabxanada "Narkomanlıq gəncliyin düşmənidir" mövzusunda informasiya günü keçirilmişdir. "Ağ ölümə qarşı mübarizə" mövzusunda məruzə oxunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyun tarixli "1941-1945-ci illər müharibəsində Qələbənin 65 illik yubileyinə hazırlıq və yubileyin qeyd edilməsi üzrə Milli Proqram"ın təsdiq edilməsi haqqında Sərəncamının icrasını təmin etmək məqsədi ilə Mərkəzi kitabxanada faşizm üzərində tarixi qələbənin 65 illik yubileyinə həsr olunmuş bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Mərkəzi kitabxanada "Ölənləri unutmayaq" adlı ikinci dünya müharibəsinin və Qarabağ müharibəsinin iştirakçıları ilə görüş gecəsi keçirilmişdir.

Mərkəzi kitabxanada, Uşaq kitabxanasında, kənd kitabxanalarında "Ataların yolu oğulların yoludur", "Qələbə-65", "Biz qəhrəmanları unutmuruq" mövzusunda söhbətlər, foto, kitab sərgiləri təşkil edilmişdir.

Ümummilli liderimiz , görkəmli dövlət xadimi Heydər Əliyevin 87 illik yubileyi ilə əlaqədar Mərkəzi kitabxanada "Silinməz izlər" adlı tədbir keçirilmiş, kitab sərgiləri təşkil olunmuşdur.

Uşaqları beynəlxalq müdafiə günü ərəfəsində A.Səhhət adına şəhər uşaq kitabxanasında "Uşaqlar gələcəyimizdir" adlı səhərcik keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Kitabxana-İnformasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin tədbirlər planına uyğun olaraq Mərkəzi Kitabxanada "Uşaq hüququ " informasiya mərkəzi yaradılmışdır. Mərkəz kompüter resursları mərkəzinin İnformasiya texnologiyaları əsasında yaradılmışdır. Mərkəzdə "Uşaq hüquqlarını qoruyaq" başlıqlı guşə yaradılmış, buraya BMT-nin "Uşaq hüquqları haqqında" konvensiyası, Azərbaycan Respublikası "Uşaq hüquqları haqqında" qanun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə təsdiq olunmuş "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı və bu sahəyə aid materiallar yerləşdirilmişdir.

M.Ə.Sabirin ildönümü ərəfəsində Mərkəzi kitabxanada "Sabir və zaman" mövzusunda oxucu konfransı keçirilmiş, "Sabirin poeziya dünyası" başlıqlı sərgi təşkil olunmuşdur.

Bundan başqa 2009-cu il ərzində Nəcəf bəy Vəzirovun 115 illiyi ilə əlaqədar oxucu konfransı, H.Ziyanın anadan olmasının 80 illiyi ilə əlaqədar təmsillərindən ibarət səhərcik, "15 sentyabr bilik günüdür" mövzusunda ədəbi-bədii gecə, qəzəlxan şair Əliaga Vahidin anadan olmasının 115 illiyi münasibətilə şeir gecəsi, yazıçı dramaturq C.Məmmədquluzadənin anadan olmasının 140 illiyi münasibətilə oxucu konfransı, C.Cabbarlının 110 illiyi, A.Səhhətin 135 illiyi münasibətilə müxtəlif tədbirlər kecirilmiş, kitab sərgiləri təşkil olunmuşdur.

Mərkəzi kitabxana və kitabxana filiallarında ekologiyaya dair "Azərbaycana səyahət" adlı sərgi təşkil edilmişdir.

MKS-nin Təşkilati-metodika şöbəsi tərəfindən kənd kitabxana filiallarına metodiki köməklik göstərmək məqsədilə vaxtaşırı olaraq yerlərə gedişlər təşkil olunmuş, yerindəcə kitabxanaçılara metodiki məsləhətlər verilmişdir.

Mərkəzi kitabxanada təşkil edilmiş "Avstriya guşəsi" ndə Avstriyadan kitabxanamıza hədiyyə edilən kitablar nümayiş etdirilir. Sərgi oxucuların marağına səbəb olmuşdur.

Məlumat üçün bildirirəm ki, hazırda Şamaxı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi özündə 52 kütləvi kitabxananı birləşdirir. Buraya 1 mərkəzi, 1 uşaq, 3 şəhər və qəsəbə , 47 kənd kitabxanası daxildir. Onların ümumi kitab fondu 433.0 min nüsxədən ibarətdir.

2009-cı ildə qeyd olunan kitab fondundan 33.4 min nəfər oxucu istifadə etmişdir ki, onlara da 716.2 min nüsxə kitab verilmişdir.

Rayon əhalisinin kitabxanaya cəlb olunması 39% təşkil edir. Bütövlükdə 52 kütləvi kitabxanada 90 nəfər kitabxana işçisi çalışır. Onların 8 nəfəri ali təhsilli, o cümlədən 7 nəfəri kitabxanaçılıq ixtisası üzrə, 36 nəfəri isə xüsusi orta təhsilli kitabxanaçılardır.

Şamaxı Rayon Mərkəzi Kitabxanasında İnformasiya Mərkəzi fəalliyyət göstərir. Burada 10 ədəd kompüter dəsti, ksero və skaner aparatı var. Mərkəzi kitabxana Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına alınan İRBİS-64 avtomatlaşdırılmış elekrton kataloqla işləyir.

2009-cu ildə Şamaxı rayon MKS-də quraşdırılmış İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sisteminə əlavə və dəyişikliklər edilmiş, yeni versiya quraşdırılması və sistemin virtual müşahidə olunması üçün tədbirlər görülmüşdür. Kitabxananın Veb-saytı yaradılmışdır. Bu günə kimi 50 min nüsxədən artıq kitab elektron kataloqa salınmışdır. Bu sahədə işimiz davam edir.

Kitabxanamız müntəzəm olaraq dövrü mətbuatla təmin olunmuş, "Mədəniyyət", "Yaddaş" qəzetlərinə, "Mədəni-maarif işi" və "Göy qurşağı" jurnallarına abunə yazılmışdır.

Ötən il 1 nəfər kitabxana işçisi Mədəniyyət İşçilərinin Respublika Hazırlıq və İxtisasartırma Mərkəzinin məşğələlərində, 2 nəfər kitabxana işçisi isə C.Cabbarlı adına Respublika Gənclər kitabxanasında keçirilən treninqlərdə iştirak etmişdir.

12 seminar müşavirə keçirilmiş, seminarlarda kitabxana işinin bu və ya digər sahələrinə aid məsələlərə toxunulmuş, keçiriləcək tədbirlər, nazirliyin göndərdiyi məktub və qərarlar işçilərin nəzərinə çatdırılmışdır.

Kitabxana fondlarının məzmunca əhəmiyyətini itirmiş və oxucular tərəfindən yararsız hala düşmüş ədəbiyyatdan təmizlənməsi məqsədi ilə 11450 nüsxə kitab silinmişdir. 2009-cu ildə kitabxanaya 4993 nüsxə 148 adda yeni ədəbiyyat daxil olmuşdur.

● B.ZAYRALIQIZI